# Qəbələ rayonu üzrə 600-dən yuxarı balla ali məktəblərə daxil olan məzunların siyahısı

| № | Soyadı, adı, atasının adı | Bitirdiyi tam orta məktəb | Bal | Daxil olduğu ali məktəb |
|---|---|---|---|---|
| 1 | Səfərəliyeva Jalə Müşfiq qızı | Şəhər 4 nömrəli | 675 | BDU - hüquq |
| 2 | Məmmədova Turan Vəli qızı | Nic qəsəbə 1 nömrəli | 674 | Seçenov adına Moskva Tibb Universitetinin Bakı filialı |
| 3 | Pənahlı Sona Sənan qızı | Vəndam qəsəbə 1 nömrəli | 673 | Bakı Ali Neft Məktəbi |
| 4 | Kərimov Natiq İsmayıl oğlu | Şəhər 2 nömrəli | 670 | ATU - müalicə işi |
| 5 | Kişmişova Səda Asim qızı | Qəmərvan kənd | 668 | Bakı Ali Neft Məktəbi |
| 6 | Yaşarlı Səidə Asim qızı | Vəndam qəsəbə 1 nömrəli | 663 | ATU - müalicə işi |
| 7 | İsgəndərova Mələk Əflatun qızı | Nohurqışlaq kənd | 652 | ADNA |
| 8 | Mahmudzadə Tahir Elşad oğlu | Şəhər 4 saylı | 650 | Türkiyə Cümhuriyyəti Ege Universiteti-mühəndislik |
| 9 | Abdullayev Vüsal Elxan oğlu | Böyük Pirəlli kənd | 649 | ATU - müalicə işi |
| 10 | Tahirli Turac Eldar qızı | Həmzəli kənd | 645 | ADİU - maliyyə işi |
| 11 | Qaragözova Dilarə Səfa qızı | Bum qəsəbə | 645 | ATU - müalicə işi |
| 12 | Səfərova Esmira Amil qızı | Qəmərvan kənd | 643 | ATU - müalicə işi |
| 13 | Məmmədova Könül Rauf qızı | Vəndam qəsəbə 2 nömrəli | 639 | Bakı Ali Neft Məktəbi |
| 14 | Cabbarova Mehri Elxan qızı | Vəndam qəsəbə 1 nömrəli | 635 | ADİU - mühasibat uçotu |
| 15 | Məmmədova Sevinc Nadir qızı | Yemişənli kənd | 635 | BDU - hüquq |
| 16 | Süleymanova Sevda Mehdi qızı | Böyük Pirəli kənd | 635 | ADU -ingilis dili |
| 17 | Balalıyev Emil Elşən oğlu | Kötüklü kənd | 634 | ADİU - mühasibat uçotu |
| 18 | Ağayeva Fidan Eldar qızı | Zarağan kənd 1 nömrəli | 633 | BDU - hüquq |
| 19 | İsmayılov Röyal İlqar oğlu | Mıxlıqovaq kənd | 631 | ADİU - iqtisadiyyatın təşkili |
| 20 | Abdulxalıqov Habil Neman oğlu | Zarağan kənd 2 nömrəli | 629 | ADU - fransız dili |
| 21 | Əfəndiyeva Nigar Yaşar qızı | Şəhər 2 nömrəli | 628 | Xəzər Universiteti |
| 22 | Sadıqlı Samir Famil oğlu | Şəhər 1 nömrəli | 625 | ATU - müalicə işi |
| 23 | Mustafayev Ruhlan Mahir oğlu | Zalam kənd | 623 | Polis Akademiyası |
| 24 | Seyidova İnci Vasif qızı | Yemişanlı kənd | 623 | BDU - hüquq |
| 25 | Süleymanova Ayşən Əhməd qızı | Şəhər 5 nömrəli | 623 | ATU - müalicə işi |
| 26 | Eyvazova Şükran İkram qızı | Yemişənli kənd | 621 | ADİU |
| 27 | Bəşirova Ayan Qara qızı | Abrıx kənd | 620 | ADU -iİngilis dili |
| 28 | Quluyeva Qəmər Seymur qızı | Şəhər 3 nömrəli | 618 | ATU - müalicə işi |
| 29 | Əzizbəyli Cavad Şirvan oğlu | Soltannuxa kənd | 615 | ADNA - mühəndislik |
| 30 | Rəhimov Vüsal Mahir oğlu | Tüntül kənd | 613 | Azərbaycan Mühəndislik Akademiyası-komputer mühəndisliyi |
| 31 | İbrahimli Esmira Elman qızı | Şəhər 4 nömrəli | 608 | BDU - coğrafiya |
| 32 | Əhmədzadə Elçin Sadiq oğlu | Kötüklü kənd | 606 | ADİU - maliyyə |
| 33 | Mirzəyeva Aysu Mehman qızı | Qəmərvan kənd | 603 | ADİU -maliyyə |
| 34 | Paşayeva Aynur Rüzgar qızı | Böyük Əmilli kənd | 605 | ADU -ingilis dili |
| 35 | Nəcəfova Nərmin Xanım qızı | Hacıalılı kənd | 601 | ADU -ingilis dili |

# Qafqaz albanlarının 2500 yaşlı varisləri

*Udilərin zəngin tarixi və mədəniyyəti saxta erməni təbliğatını ifşa edən əsas mənbələrdir*

(Əvvəli ötən sayımızda).

1836-cı ildə Rus Pravoslav Kilsəsi və Rusiya idarəçiliyi alban katolikosunun taxtını və dəftərxanasını ləğv etdikdən sonra udi xristianlar erməni kilsəsinin tam təsiri altına düşürlər. Yalnız indiki Qəbələ və Oğuz rayonları ərazisində yaşayan udilərə öz etnik mədəniyyətlərini və dillərini qoruyub saxlamaq nəsib olur.

Hazırda dünyada 10 min nəfərdən çox udi var. Onlardan 4 minə yaxını Azərbaycanda, əsasən Qəbələnin Nic qəsəbəsində, Oğuz rayonunda yaşayırlar. Qeyd edək ki, xarici ölkələrdə yaşayan udilərin hamısının tarixi vətəni Azərbaycandır. Başqa ölkələrdə yaşayan udilərin müəyyən hissəsi udi dilində danışa bilmir...

Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili deyir ki, Çar Rusiyası Qafqazı işğal etdikdən sonra Azərbaycanda yaşayan xalqların milli mənsubiyyətini müxtəlif cür yazmağa başlayıblar. Udilərə də "aborigen", "avtoxton", "albanlar" deyib, yazıya alanda isə udi sözünün yerinə "udin" işlədiblər.

Tarixi faktdır ki, Azərbaycanda xristian mədəni irsinə sahib olan udilərin, o cümlədən alban tayfalarının birbaşa erməni kilsəsinin ixtiyarına verilməsində məkrli niyyətlər güdülürdü. Robert Mobili söyləyir ki, məqsəd Qafqaz Albaniyasının xristian mədəni təməli üzərində erməni icmasının gücləndirilməsi idi: "Ermənilər ədəbiyyatı, dəftərxananı, dini ocaqları öz kilsələrinə uyğun dəyişdirməyə başladılar. Onlar özlərinə sərf edənləri tərcümə edib dəyişdirdilər, lazım olmayanları isə məhv etdilər".

Ermənilərin bura gəlmə yox, yerli xalq olması yalanına "həqiqi don" biçmək üçün Qarabağda Gəncəsar monastrında, Gədəbəy və digər bölgələrdəki alban məbədlərində alban xaçları oğurlanıb, erməni qriqoryan xaçı ilə əvəz edilib.

"Həmin dövrdə Çar Rusiyasının istəyi Azərbaycan ərazisində islam və xristian dinlərinə mənsub olan iki qütb yaratmaq idi. Ermənilərin mədəni irsə sahib olmalarına yalan üzərində şərait yaratdılar, alban sözünü isə terminologiyadan çıxartdılar" söyləyən icma sədri deyir ki, bu zaman udilər özlərini qorumaq üçün fərqli bir yol seçdilər: "Biz erməni kilsəsinə gedib ibadət etmədiyimizə görə, özümüzü qoruya bildik. Hətta ermənilər bizim onların kilsələrinə ibadətə getməməyimizlə bağlı Eçmiədzinə çoxlu şikayət məktubları da ünvanlayıb".

(Ardı gələn sayımızda).

# Qəbələ rayonunun sosial-iqtisadi inkişafının makroiqtisadi göstəriciləri

(Əvvəli ötən sayımızda).

**Əsaslı tikinti**

2019-cu ilin yanvar-iyun aylarında müəssisə və təşkilatlar tərəfindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 21442,4 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 17,4 faiz az vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 15811,3 min manatı və ya 73,7 faizi dövlət, 5631,1 min manatı və ya 26,3 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

2019-cu ilin yanvar-iyun aylarında əsas kapitala yönəldilmiş vəsaitlərin 20530,0 min manatını və ya 95,7 faizini tikinti-quraşdırma işləri təşkil etmişdir. Tikinti-quraşdırma işlərinin 15337,9 min manatı və ya 74,7 faizi dövlət, 5192,1 min manatı və ya 25,3 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

Hesabat dövründə rayonda 13149,3 min manat dəyərində əsas fondlar və ümumi sahəsi 10140,0 kvadrat metr olan yeni yaşayış evləri istifadəyə verilmişdir. İlin əvvəlindən rayonda ayrı-ayrı vətəndaşlar tərəfindən 95 fərdi yaşayış evi inşa olunmuşdur. Həmin evlərin ümumi sahəsi 10140,0 kvadrat metr təşkil etməklə, dəyəri 4780,0 min manat olmuşdur. İstismara verilmiş yaşayış evlərinin 40-ı şəhər, 55-i isə kənd yaşayış məntəqələrindədir. Kənd yaşayış məntəqələrində istismara verilmiş yaşayış evlərinin ümumi sahəsi 5400,0 kvadrat metr, dəyəri isə 2200,0 min manat olmuşdur.

2019-cu ilin yanvar-iyun aylarında rayonun tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş tikinti işlərinin dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 37,7 faiz artaraq 5302,9 min manat olmuşdur.

2019-cu ilin yanvar-iyun aylarında tikinti fəaliyyət növü üzrə çalışan işçilərin orta sayı 247 nəfər, orta aylıq nominal əmək haqqı isə 415,6 manat müəyyən olunmuşdur. İşçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 27,8 faiz artmışdır.

**Pərakəndə əmtəə dövriyyəsi və ödənişli xidmətlər**

2019-cu ilin birinci yarımillik ərzində rayonun istehlak bazarında əhaliyə 28851 min manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 93786.2 min manat olmuş bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 4,6 faiz və ya 4086 min manat çox olmuşdur.

Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşə dövriyyəsinin xüsusi çəkisi isə 9,4 faiz və ya 8785 min manat təşkil etmişdir.

**Demoqrafik vəziyyət**

Ölkədə uğurla həyata keçirilən sosial-iqtisadi islahatların nəticəsi olaraq, Qəbələ rayonu üzrə demoqrafik vəziyyətin və əhalinin orta illik artım göstəricilərinin yaxşılaşmasına, müsbət miqrasiya saldosuna nail olunmuşdur. Belə ki, 2019-u ilin yanvar-iyun ayları ərzində rayonun əhalisinin sayı 511 nəfər və ya 0,5 faiz artaraq 107140 nəfər təşkil etmiş və əhalinin sıxlığı bir kvadrat kilometrə 69 nəfər olmuşdur.

Rayonda 688 məcburi köçkün ailəsi və bu ailələrdə 2350 nəfər məcburi köçkün vardır. Rayonda 1 şəhər, 3 qəsəbə, 60 kənd ərazi nümayəndəliyi və 29 bələdiyyə fəaliyyət göstərir.

2019-cu ilin yanvar-iyun ayları ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbəsi tərəfindən rayonda 815 doğum, 313 ölüm, 267 nikah və 63 boşanma halları qeydə alınmışdır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə doğum səviyyəsi 6,8-dən 7,6-a, nikahlar 2,4-dən 2,5-ə, boşanmalar isə 0,6-dən 0,6-ə qədər azalmış, ölümün səviyyəsi dəyişilməz olaraq 1,7 olmuşdur.

**Turizm**

2019-cu ilin I-yarımili ərzində Qəbələ rayonu ərazisində 15 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərmişdir . Həmin mehmanxana və mehmanxana tipli müəssisələrdə 991 nömrə vardır. Yerlərin ümumi sayı isə (birdəfəlik tutum) 2258 ədəddir. 2019-cu ilin yarımilli ərzində 13484 carpayı yerdən istifadə edilmişdir

Qəbələ rayonu ərzində mehmanxana və mehmanxana tipli müəssisələrə 52477 nömrə-gün istifadə edilmişdir. Bir günün orta qalmaq qiyməti 91.3 manat olmuşdur.

2019-cu ilin I-yarımili ərzində mehmanxana və mehmanxana tipli müəssisələrə yanvar ayında 11088 nəfər, fevral ayında 6702 nəfər, mart ayında 9475 nəfər, aprel ayında 13525 nəfər, may ayında 5490 nəfər, iyun ayında 21053 nəfər olmaqla cəmi 67333 nəfər yerləşdirilmişdir ki, onlardan Azərbaycan vətəndaşları 24611 nəfər vəya 36.6 faiz, xarici ölkələrin vətəndaşları 42722 nəfər və ya 63,4 faiz olmuşdur.

2019-cu ilin I-yarımili ərzində mehmanxana və mehmanxana tipli müəssisələrdə 42722 nəfər xarici ölkə vətəndaşı yerləşdirilmişdir. Onların 10036 nəfəri Səudiyyə Ərəbistanı, 7948 nəfəri Birləşmiş Ərəb Əmirlikləri, 2676 nəfəri Rusiya Federasiyası, 2240 nəfəri Küveyt, 1760 nəfəri Oman, 1752 nəfəri Bəhreyn, 1728 nəfəri Hindistan, 1430 nəfəri Qətər, 964 nəfər İsrayıl, 464 nəfər İraq, 369 nəfəri Çin, 11355 nəfəri isə digər ölkələrin vətəndaşları olmuşdur.

2019-cu ilin I yarımilində yerləşdirilmiş 67333 nəfərin qalma müddəti 1-2 gün olmuşdur.

Qəbələ rayonunda mehmanxana və mehmanxana tipli müəssisələrində bu müddətdə işçilərin orta siyahı üzrə sayı 1389 nəfər olmuşdur ki, onlardan da əcnəbi işçilərin sayı 40 nəfər təşkil etmişdir.

**Əhalinin sosial təminatı**

2019-cu ilin yanvar-iyun ayları ərzində Dövlət Sosial Müdafiə Fondu Qəbələ rayon şöbəsi tərəfindən 11168 pensiya işi üzrə 11228 ailə üzvünə 2194,8 min manat pensiya ödənilmişdir. Rayonda orta aylıq pensiya 196 manat 53 qəpik təşkil etmişdir.

2019-cu ilin yanvar-iyun ayları üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rayon şöbəsində qeydiyyatda olmuş 11168 nəfər pensiyaçıdan 918 nəfəri işləyən, 10250 nəfəri isə işləməyən pensiyaçı olmuşdur. Pensiyaçıların 7407 nəfəri yaşa görə, 2928 nəfəri əlilliyə görə, 833 nəfəri 893 isə ailə başçısının itirilməsinə görə pensiya alan şəxslərdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 196,53 manat təşkil etmişdir.

(Ardı gələn sayımızda).